Təqaüd proqramının qalibləri yeni format və məzmunlu təlimdə iştirak etmək hüququ qazanacaqdır. Təlim kursu 16 həftəlikdir (həftədə 2 dəfə 3 akademik saat hesabı ilə).

**Təlim modulları:**

• Yaş fiziologiyası və psixologiyası - ənənəvi və yeni yanaşmalar

• İbtidai təhsilin fəlsəfəsi və öyrənmə nəzəriyyələri

• Pedaqoji ustalıq praktikumu (metodika və didaktika)

• İKT savadlılığı.

**Təqaüd qazanmaq üçün müsabiqədə iştirak şərti:**

• Hazırda IV sinifdə dərs deyən ali pedaqoji təhsilli müəllimlər müsabiqədə iştirak edə bilər.

**Müraciət qaydası:**

Yuxarıda qeyd edilmiş tələblərə uyğun gələn namizədlər ərizə formasını (Əlavə) dolduraraq telim@edu.gov.az elektron poçt ünvanına göndərməlidirlər.

**Qeyd:** Bütün yazışmalar və bildirişlər elektron poçtla aparılacaqdır. Bu səbəbdən şəxsi elektron poçtunuzdan istifadə etməyiniz və poçtu mütəmadi yoxlamağınız vacibdir.

**Müraciət üçün son tarix:** 27 fevral 2015-ci il

**Seçim qaydaları:**

Təlim iştirakçıları 2 mərhələli seçim əsasında müəyyən ediləcəkdir. I mərhələdə namizədlər elektron poçt ünvanına (telim@edu.gov.az) göndərilən ərizə forması əsasında seçiləcəkdir. II mərhələdə namizədlər müsahibəyə dəvət ediləcəkdir.

**Yekun qiymətləndirmə:**

Təlimlərdə iştirak etmiş şəxslər Təhsil Nazirliyi tərəfindən təşkil olunacaq yekun qiymətləndirmədə iştirak edəcəkdir. İmtahanlarda qənaətbəxş nəticə göstərmiş namizədlərə müvafiq sertifikat və təlim resursları təqdim olunacaqdır.

**Əlavə:**

[Müraciət forması]